# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINDA MÜƏLLİM–VALİDEYN ƏMƏKDAŞLIĞININ ROLU

**Günay Kazımova**,
*psixologiya üzrə fəlsəfə doktoru*
*Gəncə Dövlət Universiteti*,
E-mail: gunaykazimova@rambler.ru

**Rəyçilər:** *dos.* Z.M. Aslanova,
*dos.* N.İ. Babayeva

***Açar sözlər:*** *müəllim, qarşılıqlı münasibət, əməkdaşlıq, məktəb, valideyn*
***Ключевые слова:*** *учитель, взаимоотношения, сотрудничество, школа, родитель*
***Key words:*** *teacher, footing, cooperation, school, parent*

Məlumdur ki, məktəbə yeni gələn uşaqlar ilk növbədə müəllimin səmimi, gülərüz, mehriban siması ilə rastlaşırlar. Şagirdin məktəbə, təlimə münasibəti elə ilk növbədə müəllimin nümunəsi münasibəti ilə başlayır. Bütövlükdə pedaqoji fəaliyyət müəllimin təlim – tərbiyə, inkişaf, şagirdlərin tərbiyəsi zamanı cəmiyyət tərəfindən irəli sürülən sifarişə müvafiq olaraq məktəblilərdə şəxsiyyətin keyfiyyətinin formalaşmasına yönəldilmiş peşə fəallığından ibarətdir.

Sinif müəllimi şagirdləri ilk olaraq məktəb həyatində qəbul edən, onunla ilk ünsiyyətə girən şəxsdir. Belə ki, hələ uzun müddət o, şagirdin təlim-tərbiyəsi ilə məşğul olacaqdır. Bu isə onun hələ müddət ünsiyyətdə olacağı deməkdir. Bu da məlumdur ki, ünsiyyətə girmədən, tərbiyə etmək də mümkün ola bilməz (1).

Şagirdlər arasında ünsiyyət heç də həmişə hər yerdə problemsiz ötüşmür. Problemlər, şagirdlərarası narazılıqlar da ortaya çıxır. Tək-tək şagirdlərin düşünülməmiş dediyi söz, şıltaq hərəkəti, ələ salmaq meyli yoldaşının xatirinə dəyir, onu özündən incik salır. Əlbəttə, bu cür hərəkətlər sinifdə, bütövlükdə götürüldükdə məktəbdə sağlam ünsiyyət ab-havasına müəyyən kölgə salır. Bəzən incik düşən şagird öz narazılığını müəllimə bildirir. Bəzi şagirdlər isə öz narazılığını müəllimə bildirmir, yoldaşına küsür. Bu, sinifdə yeganə hal olsa da yolverilməzdir. Müəllimdən yalnız sərtlik görən, kobudluq duyan, elə hey danlanan şagird nəinki, həmin müəllimlə ünsiyyətdən çəkinir, eyni zamanda fənnə marağı sönür, onun simasında məktəbə, biliyə soyuq münasibət göstərir.

Deməli, nəinki şagirdlər arasında ünsiyyətin necəliyi, hətta müəllimlə şagirdlər arasında ünsiyyətin necəliyi müəllimin pedaqoji ustalıq dərəcəsindən çox asılı olur. Sinif müəlliminin ustalıq dərəcəsi isə son anda təlim və tərbiyənin səviyyəsində əks-səda verir (2).

Ünsiyyət, münasibət olmadan heç bir insan qrupu birgə fəaliyyəti həyata keçirə bilməz. Bu mənada pedaqoji fəaliyyətin müvəffəqiyyətlə həyata keçirilməsində pedaqoji münasibətin, müəllim şagird münasibətinin rolu olduqca böyükdür. Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim – tərbiyə prosesində həyata keçirdiyi peşə münasibətidir. Bu cür münasibət, hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş olur, kollektivdəki sosial – psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir. Ona görə də hər bir müəllimin pedaqoji münasibətin mahiyyəti, onun sosial psixoloji mahiyyəti ilə dərindən tanış olması və şagirdlərlə birgə fəaliyyət zamanı ondan lazımi şəkildə istifadə etməsi zəruridir.

Müəllim – şagird münasibətlərində müəllim dərin elmi – pedaqoji biliklərə yiyələnməklə yanaşı elə bilik, bacarıq və vərdişlərə sahib olmalıdır ki, onların köməyi ilə şagirdlərə təsir göstərə bilsin. Həmçinin şagird kollektivindəki qarşılıqlı münasibətləri fəal şəkildə idarə edə bilsin. Həyat dönə-dönə sübut etmişdir ki, məktəb təklikdə şagirdlərin təlim-tərbiyəsinin öhdəsindən yüksək səviyyədə gəlməkdə çətinlik çəkir. Bu işdə valideynlərin, bütövlükdə ictimaiyyətin köməyinə ehtiyac yaranır. Məktəblə valideynlərin müntəzəm sıx əlaqəsi uşağın təlim-tərbiyəsinin uğurlu nəticəsi üçün əsas şərtdir. Uşağın xoşbəxt insan kimi yetişməsi üçün məktəblə ailənin birgə işi həlledici amildir. İstər məktəbdaxili, istərsə də sinifdəndənxaric işlərdə valideynlərin həvəskarlığı, can yandırması və fəal kö-

məyi çox vacibdir. Valideynlər məktəbin fəaliyyət planı və dərs cədvəli ilə tanış olmalı, evi, məktəbin işi ilə həmahəng etməyə çalışmalıdır. Məktəb, şagirdlərin uğur və problemlərini müntəzəm olaraq valideynlərlə birlikdə müzakirə etməlidir. Valideyn-müəllim görüşləri və toplantıları, valideyn-müəllim fəallığı şagirdlərin ümumi vəziyyətini ətraflı təhlil etmək, məktəbin işi və qayğıları ilə mütəmadi tanış olmaq və nəticədə vacib məsələləri vaxtında həll etməyə kömək edir. Bu gün ailələrdə müəyyən sosial problemlərin mövcudluğu ilə əlaqədar olaraq valideynlər övladlarına lazımı diqqət ayıra bilmirlər. Belə ki, valideynlər nəinki ailə daxilində, hətta məktəblə bağlı məsələlərə də diqqət göstərmir, öz uşaqlarının məktəblərdə təşkil olunan valideyn iclaslarına qatılmırlar. Bu diqqətsizlik şagirdlərdə məsuliyyət hissinin azalmasına, onların təhsil və tərbiyə səviyyəsinin aşağı düşməsinə səbəb olur. Təcrübə göstərir ki, kiçik yaşlı məktəblilərin valideynləri ilə sinif müəllimlərinin görüşləri valideyn iclaslarında iştirak etməklə yekunlaşmır, onlar, demək olar ki, hər gün görüşə bilir və müntəzəm məsləhətləşirlər. Sinif rəhbərlərindən fərqli olaraq sinif müəllimləri valideynlərin ən etibarlı məsləhətçilərinə, ən etibarlı dostlarına çevrilir. Valideyn bilməlidir ki, konkret nələrə görə o, bir valideyn kimi məktəbdən və müəllimdən daha çox məsuliyyət daşıyır. Bu məsuliyyət isə yalnız yeniyetmə və gənclərin, Azərbaycan təhsilinin xeyrinə olar (3).

Aparılan tədqiqatlara əsasən, valideynləri tədris prosesində fəal olaraq iştirak edən şagirdlər daha yaxşı nəticələr əldə edirlər. Onlar, daha yaxşı qiymətlər alır, daha yüksək akademik nailiyyətlərə sahibdirlər, ev tapşırıqları daha keyfiyyətli şəkildə yerinə yetirilmiş olur. Onların davamiyyət göstəriciləri daha yüksəkdir və onlar pozitiv hərəkətləri ilə fərqlənirlər. Məktəbə qarşı daim xoş əhval ruhiyyədə olurlar. Özlərinə və imkanlarına inamları var. Valideynlərin cəlb edilməsi tədris müəssisələri tərəfindən də müsbət qiymətləndirilir. Tədris prosesində valideynlərin fəallığı məktəb mədəniyyətini zənginləşdirir və onun inkişafına kömək edir. Belə ki, daha yaxşı nəticələrə çatmaq üçün məktəb və müəllim valideynlərlə fəal əməkdaşlıqda maraqlı tərəf olmalıdır. Valideynlərin fəal olaraq tədris prosesinə cəlb edilməsi məktəb icması, müəllimlər, valideynlər və şagirdlər tərəfindən də müsbət qarşılanır.

Məktəb və ailə arasında ikitərəfli, daimi ünsiyyət uşağın inkişafına kömək edən ən əhəmiyyətli amillərdən biridir. Səmərəli ünsiyyət üçün, müəllim və valideynin bir-biri ilə məlumatları paylaşması vacibdir. Əksər məktəblərdə məlumatın yayılması üçün məlumat bülletenləri, internet səhifələri və məktəb məlumat lövhələri kimi effektiv üsullar işlənib hazırlanıb. Adı çəkilən vasitələrdə müvafiq məlumatlar, bildirişlər yerləşdirilir. Valideyn və məktəb arasındakı ünsiyyət sistemli və səmərəli olduğu zaman, valideynlərin tədris prosesinə cəlb olunması inkişaf edir, onlar tərəfindən məktəbin qiymətləndirilməsi yüksəlir və onlarda məktəbə qarşı müsbət münasibət yaranır. Təbiidir ki, istifadə olunan strategiyalar məktəb icmasının maraqlarına görə hazırlanmalıdır (4).




Qeyd edək ki, Dünya Bankının maliyyə və "Allianz Consult" şirkətinin təşkilati dəstəyi ilə Təhsil Nazirliyinin həyata keçirdiyi pilot layihə çərçivəsində 2015-ci ilin sentyabrından ölkənin 54 ümumi təhsil müəssisəsində məktəb icmaları yaradılıb. Həmin təhsil ocaqlarından ikisi Gəncə şəhərindədir. Şagirdlər, valideynlər və sinif rəhbərlərinin daxil olduğu məktəb icmaları "Birlikdə öyrənirik, istirahət edirik, inkişaf edirik" devizi altında fəaliyyət göstərir. Yeni format prosesin bütün iştirakçılarının məktəb həyatında fəallığını nəzərdə tutur. Müasir məktəbdə uğurun, nailiyyətlərin əsası şagird, valideyn və müəllimlərin vahid qarşılıqlı əlaqəsindən keçir. Məktəb icmaları cəmiyyətə bir neçə mühüm mesajı çatdırır: məktəb ikinci evdir, məktəb şagirdi həyata hazırlayır. Bununla yanaşı, hamı əlaçı ola bilməz, amma hər bir kəsin istedadı var. Bütün bunları ümumiləşdirsək, deyə bilərik ki, məktəb icmaları məktəbin hərtərəfli inkişaf etmək üçün mühit olduğunu göstərəcək. Məktəb icmasının yaradılmasının əsas məqsədi, məktəblə valideyn arasında əlaqələrin genişləndirilməsi, şagirdlərin bilik və bacarıqları ilə bərabər, onların qabiliyyətlərinin də aşkar edilərək inkişaf etdirilməsi, şagirdlərin şəxsiyyətyönümlü formalaşdırılması üçün onlara olan diqqət və qayğının artırılması, eyni zamanda bununla bərabər digər siniflərin də həmin layihəyə qoşulmasından ibarətdir.





Yeni yaradılan qurum – məktəb icmaları məktəb həyatını birlikdə daha yaxşı idarə etmək üçün yaradılan şagird, valideyn və müəllimlərin birliyi kimi xatakterizə edilib. Layihəyə əsasən, icma çərçivəsində valideynlər, müəllimlər və uşaqlar bərabər hüquqlu fəaliyyət göstərəcək və birlikdə qərar qəbul edəcəklər (5).

Dünya təcrübəsində məktəb icmaları artıq 100 ildən artıqdır fəaliyyət göstərir. İcma üçtərəfli əməkdaşlıq deməkdir – məktəb, cəmiyyət və ailə. Valideyn Komitələrində məktəblə valideyn əməkdaşlığından söhbət gedirdi. Ancaq icmada artıq üçüncü tərəf var. Müasir təlim-tərbiyə işinin qurulmasında cəmiyyətin olması vacibdir. Bu üç dayaq birlikdə məktəblərdə mövcud olan valideyn komitələrini yetərincə çox yüksək səviyyədə əvəz edə biləcək. Buna görə məktəb icmalarının yaradılması günün tələbidir, bir sosial sifarişdir. Onu qəbul etmədən, məktəblərin problemlərinin həlli öz səmərəsini vermir.

**Problemin elmi yeniliyi.** Müasir təlim-tərbiyə işinin qurulmasında məktəb icmalarının yaradılması günün tələbidir, bir sosial sifarişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Hər bir valideyn yaxşı anlamalıdır ki, son illər təhsildə gedən dəyişikliklər, əldə olunan müsbət nəticələr, məktəblərdə tətbiq olunan bir sıra yeniliklər onun övladının yüksək təlim və tərbiyə almasına yönəlib.

## ƏDƏBİYYAT


1. Ağayev Ə.Ə. Pedaqogika. Bakı: Adiloğlu, 2006.
2. Kazımov N., Tətbiqi pedaqogika. Bakı: Çaşıoğlu, 2010.
3. Kazımov N., Məktəb pedaqogikası, Bakı, Çaşıoğlu, 2002.
4. http://kargiskola.ge
5. Edu.gov.az


**G.S. Kazimova**

## TEACHER - STUDENT RELATIONS, THE FORMATION OF THE TEACHER - THE ROLE OF PARENTAL COOPERATION

### SUMMARY

The school students' success and the problems should be discussed with parents on a regular basis.Between the school and the family, the most important one of the factors contributing to the development of the child's constant communication. Effective communication with teachers and parents to share information with each other is important.

**Г.С. Кязымова**

## РОЛЬ СОТРУДНИЧЕСТВА УЧИТЕЛЬ-РОДИТЕЛЬ В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧЕНИК

### РЕЗЮМЕ

Успех школьников и их проблемы должны регулярно обсуждаться с родителями. Сотрудничество между учителями и родителями, между школой и семьей является самым важным фактором в развитии ребенка. Важным является также правильное общение учителей с родителями. Каждый родитель должен осознать, что происходящие в последнее время изменения в области образования, внедряемые новшества направлены на пользу их детей.

**Redaksiyaya daxil olub: 17.05.2016**